**Qədirov A.X.** ♦

# Korrupsiya cinayətlərinin istintaqı zamanı xüsusi biliklərdən istifadənin taktiki və prosessual xüsusiyyətləri

**Annotasiya**: Korrupsiya cinayətlərinin istintaqı zamanı xüsusi biliklərdən istifadəsinin prosessual xüsusiyyətləri və taktikası nəzərdən keçirilir.

Xüsusi biliklərin istifadə zamanı kriminlistikanın və cinayət prosesinin müddəalarının qarışıqlı münasibəti tədqiq olunur, xüsusi biliklər sistemi və onun tərkib elementləri təhlil edilir.

Cinayət-prosessual qanunvericiliyinə dəyişiklik və əlavələr edilməsi üçün kriminalistik tövsiyə və təkliflər verilib.

**Təyinedici sözlər**: korrupsiya cinayətləri; xüsusi biliklər; taktika; prosessual xüsusiyyətlər; qarışıqlı münasibət.

Cinayətlərin açılması və istintaqında, cinayət işlərinə məhkəmədə baxılmasında müstəntiq və hakimlərin, cinayət prosesinin digər iştirakçılarının malik olmadığı xüsusi biliklərdən istifadə zəruriliyi yaranır.

Bu biliklərdən istifadənin hüquqi əsası kimi cinayət-prosessual qanunvericilik normaları cıxış edir ki, onlar da təəssüf ki, xüsusi biliklər və digər qeyri-xüsusi biliklərin fərqləndirilməsi üçün zəruri olan dəqiq meyarları müəyyən etmir.

AR-nın yeni CPM-də ekspert və mütəxəssis anlayışlarının mahiyyəti açılsa da, «xüsusi biliklər» anlayışı bu məcəllənin normalarında verilməmişdir. Məsələn, AR CPM-nin 96.1-ci maddəsində göstərilir ki, mütəxəssis cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən

---

♦ **Qədirov Asif Xanoğlan oğlu** – hüquq üzrə fəlsəfə doktoru, Beynəlxalq Hüquq Tədqiqatları Təşkilatının üzvü (Azərbaycan). E-mail: mopi_sid@yahoo.com

orqan tərəfindən təyin edilmiş şəxsdir. AR CPM-nin 97.1-ci maddəsində isə qeyd olunur: ekspert elm, texnika, inə sənət və digər peşə sahəsində xüsusi biliklərindən istifadə etməklə rəy verməyə qadir olan cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqatının aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxsdir.

Göründüyü kimi, qanunverici Azərbaycan cinayət prosesində xüsusi biliklərə malik olan şəx slərdən istifadəni müəyyən edən vahid hüquqi meyar tətbiq etməyə qərar vermişdir. Təəssüf ki, yeni cinayət-prosessual qanunda «xüsusi biliklər» anlayışının hüquqi şərhi verilməmişdir.

Cinayət prosesində və kriminalistikada xüsusi biliklər anlayışının, bu anlayışın əsasını təşkil edən əlamətlər qrupunun formalaşmasına, onun bir sıra əlamətlərinin müəyyən olunmasına əhəmiyyətli töhfəni R. S. Belkin, V.İ. Qonçarenko, Y.Q. Koruxov, V.I. Şikanov, A.R. Şlyaxov və başqaları vermişlər. Beləliklə də müasir anlamda xüsusi biliklərin əsas əlamətləri müəyyən olunmuş, formalaşmışdır. Bu anlayış sonradan bir sıra müəlliflər tərəfindən nəzərdən keçirilmiş və müxtəlif istiqamətlərdə dəqiqləşdirilmişdir.

Xüsusi halda, xüsusi biliklər anlayışına öz doktorluq dissertasiyalarında İ.N. Sorokotyaqin (1992), V.N. Maxov (1993) diqqət yetirmişlər.

A.A. Eysman yazır ki, xüsusi biliklər dedikdə məhdud dairəli mütəxəssislərin malik oldugu lakin sübutetməni həyata keçirən şəxsin və ya orqanın (müstəntiq, hakim, digər proses iştirakçıları) malik olmadığı biliklər başa duşülür [7, s. 89].

Belə bir mövqe tamamilə düzgündür. Çünki məhkəmə ekspertizası xüsusi biliklərin tətbiqi əsasında faktiki məlumatların təyininə xidmət edir ki, belə xüsusi biliklərə də ekspertizanı təyin etmiş hakim, müstəntiq və ya prokuror malik deyildir. Ekspert yalnız ona təqdim olunmuş materiallarda əks olunmuş konkret işin hallarını tədqiq edə bilər. Bu fakta bir çox kriminalistlər və prosessualistlər diqqət yetirmiş və göstərmişlər.

Bununla baglı, nəzərə alsaq ki, hal-hazırda incəsənət və peşə sahəsində biliklər elmə və müasir texnikadan geniş istifadəyə əsaslanır, onda qanunverici tərəfindən

qanunda ekspert qismində incəsənət və peşə sahəsində deyil, yalnız elm və texnika sahəsində biliklərə malik şəxslərin cəlb olunmasının nəzərdə tutulmasını daha düzgün hesab edirik.

Ekspertdən fərqli olaraq mütəxəssis tədqiqatlar aparmır, rəy vermir, yalnız müstəntiqə sübutların aşkarı, qeydə alınması və götürülməsində kömək edir. Mütəxəssisin fikri ekspert rəyi ilə eyniləşdirilmir.

Məhkəmə ekspertizası - iş üçün ə həmiyyət kəsb edən halların (faktların) müəyyən olunması məqsədi ilə ibtidai araşdırma orqanları, prokuror və ya məhkəmə tərəfindən yazılı tapşırıq əsasında xüsusi olaraq müəyyən olunmuş şəxs - ekspert tərəfindən keçirilən prosessual hərəkətdir. Bütün keçirilmiş ekspertizalar xüsusi prosessual sənəddə - rəydə qeyda alınır ki, bu rəy də müstəqil sübut növüdür.

Ümumiyyətlə bilik - subyekt tərəfindən obyektiv reallığın: predmetlərin, hadisələrin, təbiət və cəmiyyət qanunlarının idrakı (dərk olunması) nəticəsidir. Ona görə də bilik - obyektiv aləmin subyektiv obrazıdır.

«Bilik insanın idrak fəaliyyəti nəticələrinin sistemləşdirilməsi və mövcudluğu formasıdır. Biliklərin müxtəlif formalarını ayırırlar: gündəlik, adi («sağlam duşüncə»), şəxsi, qeyri-aşkar və s. Bilik nitqin (dilin) işarə vasitələri ilə obyektivləşdirilir» [5, s. 425].

«Bilik - insanların ictimai-maddi və mənəvi fəaliyyətinin məhsulu; aləmin obyektiv xassələrinin və əlaqələrinin, təbiətin və insanın işarə formasında ideal ifadəsi... Bilikdə dağınıq, pərakəndə təsəvvürlərin ümumi əhəmiyyəti olan, nəzəri cəhətdən sistemləşdirilmiş forma qəbul etməsi, gələcək insan fəaliyyəti üçün möhkəm bir əsas, istinadgah kimi saxlanıla, ötürülə və varisliklə inkişaf etdirilə biləcək olanın qorunub saxlanılması həyata keçirilir» [2, s. 60].

Hesab edirik ki, «xüsusi biliklər» anlayışının aşağıdaki tərifini vermək olar: «Xüsusi biliklər – cinayət işi üçün əhəmiyyət kəsb edən, predmet və hadisələrin tədqiqi və mahiyyətinin izahı üçün cinayət prosesində istifadə olunan, şəxs tərəfindən müəyyən (hər-hansı) ixtisas üzrə xüsusi peşə təhsili və hazırlığı vasitəsilə əldə edilmiş elmi biliklərin, bacarıq və vərdişlərin məcmusudur».

Xüsusi bilikləri xarakterizə edən əlamətlər olaraq göstərmək olar: xüsusi biliklər – hər-hansı sahədə obyekt haqqında sistemləşdirilmiş elmi biliklərdir; xüsusi biliklərdən cinayət prosesində istifadə edilməsi qanunla tənzimlənmişdir; xüsusi biliklərə hər-hansı bir ixtisas üzrə peşə hazırlığı gedişində əldə edən şəxslər dairəsi malikdir.

Prosessual ədəbiyyatda həm xüsusi biliklərin anlayışı, həm də cinayətlərin araşdırılması zamanı xüsusi biliklərin tətbiqinin müxtəlif formaları və üsulları ətraflı şərh edilmişdir [4, s. 127]. Bu formalar sırasına aid edilir: a) cinayət işinin ibtidai araşdırmasını və məhkəmə baxışını aparan müstəntiq və hakim tərəfindən məhkəmə ekspertizasının təyin olunması (CPM, mad. 264); b) xüsusi biliyə malik olan şəxslərdən arayış və məsləhət alınması (CPM, mad. 96.4.5); c) mütəxəssislərin istintaq hərəkətlərinin aparılmasına cəlb edilməsi (CPM, mad. 85.4.3); 9) təftiş aparılması (CPM, mad. 85.4.4).

R.A. Ataşova yazır: «Mütəxəssis istintaq və ya digər prosessual hərəkətlərin aparılmasına kömək məqsədilə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən dəvət olunmuş müxtəlif qeyri-hüquq sahələri üzrə biliyə malik olan və işdə marağı olmayan şəxsdir. Cinayət prosesinin digər iştirakçısı kimi mütəxəssisin prosessual statusu aşağıdakı əsas əlamətlərlə xarakterizə olunur: 1) mütəxəssis elm, texnika, incəsənət və digər peşə sahələri üzrə xüsusi biliyə və bacarığa malik olmalıdır; 2) araşdırılan cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar üzrə icraatda şəxsi (fikrimizcə, şərh olunan maddədə göstərildiyi kimi yalnız «şəxsi» deyil, hər hansı digər maraqlarının olması da şəxsin mütəxəssis qismində təyin edilməsini istisna edən hal sayılmalıdır) marağı olmamalıdır» [1, s. 312].

Xüsusi biliklərin tətbiq olunmasının bu və ya digər formasının seçilməsi taktiki cəhətdən əsaslandırılmalıdır. Ilk növbədə müəyyən edilməli olan faktın əhəmiyyətli olub-olmaması dəqiqləşdirilməlidir. Əgər xüsusi biliklərin köməyi ilə müəyyən edilməli fakt sübutu əhəmiyyətlidirsə, yəni əgər sonrakı sübutetmə prosesində həmin fakt ibtidai araşdırma zamanı irəli sürülən hər hansı fərziyyənin təsdiqlənməsi və ya təkzib olunması üçün dəlil kimi istifadə oluna bilərsə, onda məhkəmə ekspertizasının

aparılması zəruri hesab oluna bilər. Xüsusi laborator tədqiqatların aparılması zərurəti də məhkəmə ekspertizasının zəruriliyini əsaslandıra bilər.

Tətbiq olunma üçün lazım olan vaxt, faktın mötəbər şəkildə müəyyən edilməsinin etibarlılığı, faydalılıq kimi amillər də xüsusi biliklərin tətbiq olunmasının əhəmiyyətli kriteriyaları hesab olunmalıdır.

Araşdırma prosesində xüsusi biliklər müstəntiq, mütəxəssis, ekspert tərəfindən müxtəlif prosessual formalarda tətbiq edilir. Lakin tətbiq olunan bu xüsusi biliklər həm həcminə görə, həm də məzmununa görə, ən əsəs isə onlar tətbiq olunma sferalarına görə fərqlənirlər.

Müstəntiq və mütəxəssis bu bilikləri adi istintaq hərəkətlərində (məsələn, axtarış, baxış, istintaq eksperimenti, hadisə yerinin müayinəsi və s.), ekspert isə öz biliklərini xüsusi istintaq hərəkəti - ekspertiza icraatı zamanı tətbiq edir. Ekspertin rəyi prosessual qanunvericiliyə görə məhkəmə sübutlarının mənbəyi, onun nəticələri isə sübut statusuna malikdir. Hesab edirik ki, şübhəsiz qəbul olunan bu müddəalardan çıxış edərək, ekspertin gəldiyi nəticələri, onlara lazımı qaydada, elmi və metodik tələblərə uyğun olaraq tənqidi şəkildə yanaşmadan qəbul etməklə onların əhəmiyyətini süni şəkildə artırmaq və sübutu əhəmiyyətli faktların müəyyən olunmasında müstəntiqin rolunu qiymətləndirməmək olmaz. Müstəntiqin nəticələri sübut olmasa da, onun tərəfindən müəyyən olunan və protokola daxil edilən faktik məlumatlar sübuti qüvvəyə malik olurlar. Məsələn, işıq süzgəci ilə və ya ultrabanovşəyi şüalarla sənədə baxış keçirərkən, müstəntiq iş üçün əhəmiyyət kəsb edən yazılan, silinmiş rəqəmləri və s. aşkar edir. Belə halda istintaq baxışı kifayətdirmi, yoxsa ekspertizanın təyin olunması zaruridir? Əgər müstəntiq tərəfindən xüsusi biliklərdən istifadə olunmasının nəticələri aydındırsa və prosesin bütün iştirakçıları üçün aşkardırsa, o zaman ekspertizanın təyin olunmasına zərurət yaranmır. Məsələn, basma qüvvəsinin nəticəsində əmələ gəlmiş sənədin mətni kölgəli fotoşəkil çəkmə vasitəsi ilə aşkar fakta çevrilir. Müqayisə olunan obyektlərin fərqləndirilməsində də aşkar hallar olur. Məsələn, şübhəli sənəddə olan möhür əksi ilə nümunələr müqayisə olunduqda əkslərin məzmununda olan fərqlərin aşkar olunması bu hallar sırasına aid edilir.

Müstəntiq hər hansı istintaq hərəkətinin aparılması üçün müvafiq mütəxəssisi dəvət edə bilər. Müstəntiq və mütəxəssis baxış və ya digər istintaq hərəkətləri zamanı, kriminalistik texnikanın qanunauyğun olmayan və sonradan ekspertizanın aparılmasını çətinləşdirəcək hallar istisna olmaqla, bütün üsul və vasitələrindən istifadə edə bilərlər.

Əgər xüsusi biliklərin istintaq tətbiqinin prosesi və nəticələri aşkar deyildirsə və onların izahı müvafiq ekspertin qiymətləndirməsini tələb edirsə, onda ekspertizanın təyin olunması zəruri hala çevrilir. Məsələn, müqayisəli tədqiqat zamanı aşkar olunan uyğunlaşdırıcı əlamətlərin kifayətliliyinin qiymətləndirilməsi kriminalistik ekspertizanın təyin olunmasını tələb edir, çünki bu uygunlaşdırıcı əlamətlər təkçə eyniliyin yox, həm də müxtəlif obyektlərin oxşarlığının nəticəsi ola bilər.

Xüsusi biliklərinin tətbiq olunma forması kimi ekspertizanı bir sıra əlamətlər kompleksi xarakterizə edir. Məhkəmə ekspertizasının əlamətləri prosessual ədəbiyyatda kifayət qədər tədqiq olunsa da müxtəlif müəlliflər bunun üçün müxtəlif əlamətlər (və müxtəlif ardıcıllıqla sadalanan əlamətlər) müəyyən edirlər. Məsələn, A.M. Zinin və N.P. Maylis bu əlamətlərin sırasına aşağıdakıları aid edirlər: a) ekspertizaya hazırlığın, onun təyininin və aparılmasının xüsusi hüquqi reqlamentə riayət olunmaqla icrası və bu reqlamentə uyğun prosedurla yanaşı ekspertin, ekspertizanı təyin edən şəxsin, həmçinin təqsirləndirilən (şübhəli) şəxsin hüquq və vəzifələrinin müəyyən olunması; b) tədqiqatın elmin, texnikanın, incəsənətin və sənətin müxtəlif sahələrinə aid xüsusi biliklər əsasında aparılması; c) sübut mənbəyi statusuna malik olan rəyin verilməsi [3, s. 19-20].

Ekspert öz prosessual statusuna görə mütəxəssisdən fərqlənir. «Ekspert öz xüsusi biliyindən istifadə edərək apardığı ekspert tədqiqatları nəticəsində qanunla sübut növü (CPM-in 124.2.2-ci maddəsi) olan ekspert rəyi verir. Mütəxəssis isə cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallar üzrə icraatda istintaq (məhkəmə) və ya digər prosessual hərəkətlərin aparılmasında iştirak etməklə cinayət prosesini həyata keçirən orqana yazılı və ya şifahi məsləhətlər verir. Ekspertizanın təyin olunması haqqında təhqiqatçı müstəntiq, prokuror və ya məhkəmə ayrıca akt şəklində qərar çıxarır, lakin mütəxəssisin işə cəlb edilməsi haqqında qərarın

çıxarılması cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmamışdır. Ekspert rəyi yazılı formada olmalıdır, mütəxəssisin məsləhəti isə həm yazılı, həm də şifahi ola bilər. Ekspert bilə-bilə yalan rəy verməyə görə AR CM-in 297-ci maddəsi ilə cinayət məsuliyyəti daşıyır, lakin mütəxəssisin bilə-bilə yalan məsləhət və ya şərh verməsi cinayət məsuliyyətinə səbəb olmur. Ona görə də ekspert rəy verməkdən imtinaya və ya bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdar edildiyi halda, mütəxəssisə bu barədə xəbərdarlıq edilmir. Ekspertiza ancaq cinayət işi başlandıqdan sonra, habelə məhkəmə baxışında təyin olunur, mütəxəssis isə cinayət təqibinin başlanılmasından əvvəl də dəvət oluna bilər. Digər tərəfdən, şərh olunan maddə mütəxəssisin ifadə etdiyi fikrin ekspert rəyini əvəz etməməsinə dair göstəriş nəzərdə tutmuşdur» [1, s. 312].

Ekspertizanın aparılması müstəntiq tərəfindən bir sıra hərəkətlərin həyata keçiriliməsini tələb edir. Bu hərəkətlərin sırasına aşağıdakıları aid etmək olar: ekspertizanın aparılması haqqında qərarın qəbul edilməsi, ekspertiza müəssisəsinin və ekspertin seçilməsi, tədqiqat obyektlərinin və müqayisəedici materialların seçilməsi, ekspertiza icraatı zamanı müstəntiqin və ekspertin qarşılıqlı əlaqələrinin yaradılması, icra olunmuş ekspertizanın elmi mötəbərliyinin və sübutu əhəmiyyətinin qiymətləndirilməsi.

Ekspertizanın təyin olunmasını zəruri hesab etdikdən sonra müstəntiq onun təyin olunması anını düzgün müəyyən etməlidir. I.N. Sorokotyaqin göstərir ki, «ekspertizanın təyin olunması anının seçilməsi cinayət işinin spesifikası ilə yaranan situasiyanın müstəntiq tərəfindən qiymətləndirilməsi ilə müəyyən olunur» [6, s. 141]. Fikrimizcə bunun üçün müstəntiq, aşağıdakıları da nəzərə almalıdır:

a) ekspertizanın təyin olunması haqqında qərərla və ekspertin rəyi ilə təqsirləndirilən şəxs tanış olmalıdır (əgər işdə belə bir şəxs vardırsa). Təqsirləndirilən şəxsin ekspert qarşısında əlavə sualların qoyulması haqqında vəsatət qaldırmaq hüququ vardır;

b) ekspertiza üçün zəruri olan obyektlərin, sənədlərin və materialların ə ldə olunması əlava müstəqil istintaq hərəkətlərinin aparılmasını tələb edə bilər;

c) ekspert rəyinin yoxlanılması və qiymətləndirilməsi də əlava istintaq hərəkətlərinin aparılmasını tələb edə bilər.

Tədqiqatın obyektlərini və vəzifələrini müəyyən edərkən, ekspertiza qarşısında qoyulan sualları formalaşdırarkən, müstəntiq aşağıdakı tələbləri rəhbər tutmalıdır:

- iş üzrə müəyyən olunmalı halların mahiyyətinin aydınlaşdırılması;
- həmin halların müəyyən olunmasının elmi imkanları və metodları ilə tanışlıq;
- ekspertizaya əlava, nəzarət xarakterli sübutu əhəmiyyət kəsb edən informasiya vasitələrinin əldə edilməsi imkanlarının mövcudluğu;
- ekspertlərin kompetensiyasının dəqiq müəyyən olunması və onların nəticələri ilə əlaqədar olaraq iş üzrə digər vasitələrlə əhəmiyyətli halların müəyyən edilməsi;
- ekspert qarşısında qoyulmuş sualların xüsusi-elmi, məntiqi və qramatik mənədə düzgün formulə olunmasının zəruriliyi.

Korrupsiya ilə bağlı cinayət işlərində ekspert rəyləri subut kimi böyük əhəmiyyət kəsb edir. Cinayət işlərinin materiallarının təhlili göstərir ki, korrupsiya haqqında işlər üzrə ekspert rəyləri 47.8% halda sübutetma prosesində istifadə edilmişdir. Bir sıra hallarda məhkəmə ekspertizalarının təyini və keçirilməsinin zəruriliyi obyektiv tələbat olduğu halda, onun imkanlarından istifadə edilməmişdir. Praktiki olaraq ekspertizaların keçirildiyi bütün hallarda ilk növbədə, nəticələri cinayət-prosessual qaydada rəsmiləşdirilmiş əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsilə alınan məlumatların mövcudluğu ilə şərtlənən istintaq hərəkətləri nəticəsində əldə edilmiş materiallar, götürülmüş sənədlər və predmetlər tədqiq olunmuşdur.

Məhkəmə-istintaq, ekspert təcrübəsinin analizi, korrupsiya cinayətlərinə dair işlər üzrə əsasən aşağıdakı ekspertizaların keçirildiyini göstərmişdir:

- kriminalistik, o cümlədən sənədlərin texniki tədqiqi, xətşünaslıq, trasoloji ekspertizalar (68%);
- fonoskopik ekspertiza (54%);
- kimyəvi ekspertiza (30%);
- mühasibət ekspertizası (28%);
- əmtəəşünaslıq və tikinti-texniki ekspertizaları (21%);

- avtotexniki ekspertiza (6%).

Bəzi kateqoriyalı işlər üzrə ümumiyyətlə məhkəmə ekspertizası keçirilmədan sübut edilməli olan bəzi halları müəyyən etmək mümkün deyil. Vergidən yayınma ilə bağlı rüşvət verilməsinə dair əksər işlərdə (69.4%) məhkəmə-mühasibət və məhkəmə-iqtisad ekspertizaları təyin edilərak keçirilmişdir.

Daktiloskopik, fonoskopik, xətşünaslıq və digər bu kimi ekspertizaların təyininin əsəs məqsədi izlərə görə müəyyən obyektlərin eyniliyinin müəyyənləşdirilməsi olmuş, nəticədə insanları və müxtəlif predmetləri eyniləşdirmək mümkün olmuşdur.

Korrupsiya ilə bağlı cinayətlərin istintaqı zamanı kriminalistik ekspertizaların, xüsusi halda trasoloji (sənədlərdə və predmetlərdə əl barmaq izlərinin müəyyən olunması), xətşünaslıq (müxtəlif əlyazmaların icraçılarının eyniləşdirilməsi), sənədlərin texniki tədqiqi (basılmiş ştrixlərə, qaralanmiş yazılara görə mətnin bərpası, vərəqlərlə birlikdə hər-hansı yazıların məhv edilməsi faktının təyini, hissələrə görə bütov sənədin bərpası) və s. ekspertizalarının imkanlarından geniş istifadə olunur.

Cinayət prosesində əməliyyat-axtarış fəaliyyəti nəticlərinə görə ekspertizaların təyini və keçirilməsi haqqında danışarkən qeyd etmək lazımdır ki, ekspertiza yalnız əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı əldə edilmiş sənədlər və ya predmetlər sübut hesab edildikdən və bu keyfiyyətdə cinayət işinə daxil edildikdən sonra təyin oluna bilər.

Hesab edirik ki, daktiloskopik ekspertiza ilə yanaşı, əməliyyat axtarış fəaliyyəti nəticələrinə görə fonoskopik ekspertiza da keçirilə bilər. Fonoskopik ekspertiza faktiki olaraq ümumiyyətlə prosessual qanunvericiliklə nəzərdə tutulmuş əməliyyat-axtarış fəaliyyəti nəticələrinin sonradan məhkəmə sübutları kimi istifadə üçün yoxlanılmasının əsas üsullarından biridir. Bu, ilk novbədə, rüşvət faktlarının sənədləşdirilməsi prosesində səsyazma avadanlıqlarından geniş istifadə ilə şərtlənmişdir.

Fonoskopik ekspertiza, istər təşkilati-metodiki, istərsə də texniki baxımdan ən mürəkkəb və korrupsiya ilə bağlı cinayət işlərində kifayət qədər geniş şəkildə təyin edilən ekspertizalardan biridir. Bu ekspertiza şifahi nitqə görə şəxsiyyətin

eyniləşdirilməsi, həmçinin informasiya daşıyıcılarının (maqnit lentləri, disklər və s.) və səsyazma avadanlığının ekspert tədqiqi məqsədilə keçirilir.

Fonoskopik ekspertizanın ət dqiqat obyektləri əsasən əməliyyat-axtarış tədbirlərinin və ilk növbədə rüşvət verənin rüşvət alanla danışıqlarının, habelə onların telefon danışıqlarına qulaq asma zamanı şifahi nitqlərin yazıldığı audiyazılardır.

Bu növ cinayətlərin istintaqı prosesində fonoskopik ekspertiza üç qrup məsələləri həll edir. Birinci qrup məsələlər, səsyazısının hər-hansı bir dəyişikliklərə məruz qalmasına, onda saxtalaşdırılma və ya təhrif edilmə əlamətlərinin olmasına şübhələr olduqda yaranır. Ikinci qrup suallar fonoqramda nitqi yazılan şəxslərə aiddir. Üçüncü növ suallar istintaqı aparılan cinayət işinin müxtəlif halları nəzərə alınmaqla qoyula bilər.

Eyniləşdirmə xarakterli xətşünaslıq ekspertizası, təqsirləndirilən şəxsin onda aşkar olunmuş və cinayət hadisəsinə aid olan yazıların və ya müxtəlif xidməti sənədlərin tərtibi ilə bağlı yazıları icra etməsi faktını inkar etdiyi zaman təyin edilir.

Maddə və materialların ekspertizası, fərdiləşdirmə vasitəsi kimi rüşvət predmetinin emalı (işlənməsi) üçün istifadə edilən xüsusi kimyəvi maddələrin vahid yaranma mənbəyinin və qrup mənsubiyyətinin müəyyən edilməsi üçün təyin edilir. Qeyd etmək lazımdır ki, korrupsiya cinayətlərinin istintaqı zamanı rüşvət alanda (əlində, paltarında) kimyəvi maddələrin, pulların və ya digər rüşvət predmetinin əvvəlcədən vurulmuş kimyəvi maddə ilə eyniləşdirilməsi ilə bağlı kimyəvi ekspertizaların təyin edilməsi halları da geniş yayılmışdır.

Korrupsiya ilə bağlı cinayət işlərində digər ekspertiza tədqiqatları bilavasitə təqsirləndirilənin şəxsiyyətı (psixoloji və psixiatrik ekspertizalar), rüşvət predmetinin qiyməti, əmlakın uçotu qaydaları, qiymətli kağızların, pul vəsaitlərinin və sənədlərin dövriyyəsi (mühasibat, əmtəəşünaslıq ekspertizaları) ilə bağlı spesifik sualların yaranması ilə bağlı aparılmışdır.

Cinayət işlərinin açılması və istintaqı prosesində əməliyyat-axtarış fəaliyyətinin nəticələri əsasında ekspertizanın təyini və keçirilməsi haqqında danışarkən, qeyd etmək lazımdır ki, ekspertiza bu hallarda əməliyyat-axtarış tədbirlərinin həyata

keçirilməsi zamanı əldə edilmiş predmetlər və sənədlərin maddi sübut hesab edildiyi və bu keyfiyyətdə cinayət işinə əlavə olunduğu hallarda təyin edilməlidir.

Ümumiyyətlə əldə olan əməliyyat-axtarış fəaliyyətinin nəticələrinə görə müxtəlif ekspertizaların keçirilməsi – rüşvətxorluq və digər korrupsiya əməlləri ilə bağlı cinayət işləri üzrə sübutedici bazanın natamamlığından irəli gələn bir çox problem məsələləri həll etməyə imkan verir.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının cinayət-prosessual məcəlləsinin kommentariyası / C.H. Mövsümovun redaktəsi ilə. 1-ci cild. Bakı: Digesta, 2003.
2. Məmmədov V.Q. Korrupsiya ilə bağlı cinayətlərlə mübarizənin problem məsələləri. Bakı: Adiloğlu, 2006.
3. Зинин А.М., Майлис Н.П. Научные и правовые основы судебной экспертизы. М.: Право и закон, Юрайт-Издат, 2001.
4. Селина Е.В. Применение специальных познаний по уголовным делам. М.: Юрлитинформ, 2002.
5. Советский Энциклопедический словарь / Гл. ред. А.М. Прохоров. 4-е изд. М.: Сов. энциклопедия, 1989.
6. Сорокотягин И.Н. Судебная экспертиза: Учебное пособие. Ростов-на-Дону, 2006.
7. Эйсман А.А. Критерии и формы использования специальных познаний при криминалистическом исследовании в целях получения судебных доказательств // Вопросы криминалистики. Вып. 6-7, 1962, с. 38-42.

**Гадиров А.Х.** ♦

# Процессуальные особенности и тактика использования специальных знаний при расследовании коррупционных преступлений

**Аннотация:** Рассматриваются процессуальные особенности и тактика использования специальных знаний при расследовании коррупционных преступлений.

Исследуется соотношение положений криминалистики и уголовного процесса при использовании специальных знаний, анализируется система специальных знаний и её составные элементы.

Даны криминалистические рекомендации и предложения по изменению и дополнению уголовно-процессуального законодательства.

**Ключевые слова:** коррупционные преступления; специальные знания; тактика; процессуальные особенности; соотношение.

♦ **Гадиров Асиф Ханоглан оглы** – доктор философии права, член Международной организации правовых исследований (Азербайджан). E-mail: mopi_sid@yahoo.com